**SƏİDƏ DADAŞOVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**ADPU**
**Üzeyir Hacıbəyli küçəsi, 68**
**saida.dadasova@bk.ru**

# MOLYERİN ESTETİK BAXIŞLARI

**Xülasə**

Molyerin əsərləri böyük islahedici gücə malikdir. Bu əsərlər nöqsanlı, əxlaqsız insanları ələ salmaqla onlara ağır zərbə vurur. Molyerə görə komediya qarşısında iki vəzifə durur: nəsihət vermək və əyləndirmək. Əgər komediya ibrətamiz elementlərdən məhrum edilsə, o mənasız masqaraya çevriləcək, əgər ondan əyləndirici funksiyanı alsaq, komediya əxlaqi bir əsərə yerini vermiş olacaq. Dramaturq öz satirasının ictimai əhəmiyyətini çox gözəl başa düşürdü: Molyerə görə ən yaxşı onun edə bildiyidir – bu onun dövrünün nöqsanlarını gülünc təsvir edərək ifşa etməkdir. Real zarafatlarında, səhnə həqiqətlərində Molyerin cazibəsi bütünlüklə aydındır, amma zaman, zövq, əsr anlayışı ona Şekspir zirvəsinə qalxmaq üçün öz istedadını göstərməyə imkan vermirdi. Molyerin fikrincə, Teatr – cəmiyyətin güzgüsüdür, o bu fikri ilə bütün yazıçıları, insanları təsvir etməyə, orijinaldan yazmağa, onların portretini münasib, uyğun yaratmağa çağırırdı. Komediyanın vəzifələri haqqında Molyerin təqdimatı klassik estetika dairəsindən yaranmırdı. O, komediyanın vəzifəsini, «səhnədə ümumi nöqsanları xoş təsirlə» verməkdə görürdü. Molyer klassik qaydalara qarşı çıxmırdı. Aktyor özü üçün oynamamalıdır, dramaturqu öyrənməlidir. Molyer öz estetik proqramının əsas prinsipini yaddan çıxartmırdı. O, ifşa edilmiş oyunbazın əlamətlərindən istifadə edərək tamaşaçıları güldürür. Molyerin gücü onun humanist ideallara qırılmaz bağlılığında idi. Məhz daxilindəki xəlqiliyin sayəsində Molyerin yaradıcılığı müasir dəbi prosesdə müasirləri ilə müqayisədə daha qabarıq nəzərə çarpırdı. Molyerin üslubu klassisizmin Korney və Rasin kimi nümayəndələri ilə müqayisədə şəksiz üstünlüyə malik idi. Bu üstünlüklər gerçəkliklə, xalq ənənələri və Renessans sənətinin prinsipləri ilə sıx şəkildə bağlı idi. Renessans incəsənətinin ümdə xüsusiyyətlərindən olan xəlqilik Molyerin yaradıcılığında dominantlıq təşkil edirdi. Molyer yaradıcılığının bütün canlılığı və emosionallığı ilə, intellektuallıq onun dühasının mühüm cəhəti sayılırdı. Rasional metod tipik xarakterlərin və həyati konfliktlərin dərin və şüurlu analizini şərtləndirirdi, komediyaların ideya baxımdan aydınlığına şərait yaradırdı. Klassisist istiqamətli bir sənətkar kimi Molyeri həyatdan yalnız o cəhətləri seçib-ayırırdı ki, bunlar ona ayrı-ayrı tiplərin təsvirində yardımçı olurdu, bədii mətnlərdə o, həyatı bütün rəngləri ilə canlandırmağa çalışmırdı.

**Açar sözlər: dramaturq, komediya, pamflet, xarakter**

Ədəbi yaradıcılığa başlarkən Molyer ləqəbini götürmüş Jan Batist Poklən böyük fransız komediya yazarı, Fransa və Qərbi Avropa ədəbiyyatında klassik komediya janrının banisidir. Fransız dramaturqu, aktyor, teatr xadimi Jan Batist Molyerin dünyagörüşünə fransız materialist filosofu P.Qassendinin təlimi güclü təsir göstərmişdir. Gənc yaşlarında həyatını teatrla bağlamış, 1643-cü ildə "Parlaq teatr" truppasını yaratmışdır. Lakin Parisdə müvəffəqiyyət qazanmayan truppa 12 il əyalət şəhərlərini gəzib dolaşmış, bu müddət ərzində Molyer xalq həyatını dərindən öyrənmiş, gələcək əsərləri üçün zəngin material toplamışdır. "Xəsis",

"Skapenin kələkləri", "Jorj Danden və yaxud aldadılmış ər", "Sqanarel", "Tartüf", "Don Juan və yaxud daş qonaq" və bir çox digər əsərləri onun şah əsərləridir.

«Molyer bu gün, dünyanın hər yerində komik teatrla təxminən eyniləşdirilir. Teatrı Molyerin komediyaları olmadan xatırlamaq mümkün deyil. Molyer digər bir çox yazıçılar – Korney, Rasin kimi yazmırdı. Teatr üçün o, hər şey edirdi, o, bütün rolları özündə cəmləşdirirdi. Molyer həm müəllif, həm truppa rəhbəri, həm rejissor, həm də komediya yazar idi. Bu nöqteyi-nəzərdən heç kim (Şekspir istisna olmaqla) onun kimi teatr sənətini simvollaşdırmırdı. Molyerin əsərləri hərtərəfliliyi ilə oxucunu cəlb edir, o qədim dövrlərdə teatr ənənələrinin bütün növlərindən qidalanaraq, onları yenidən yeni istinadlarda, yeni əfsanələrdə və teatr adamlarının xatirəsində canlandırdı". (1, s.11) Molyerin əsərlərindən hər biri bir mübarizədir, əzmli bir döyüşdür. Həqiqətən, Molyerin heç bir əsəri mübahisəsiz olmamışdır. Pamfletlər, həcvlər, tənqidlər Molyeri bütün yaradıcılığı boyu müşahidə etmişdir. Molyer hər bir şeyi hədəfə alırdı. İfşa edilmişlər, gülünc ədəbazlar, cahil həkimlər, yalançı möminlər Molyer dünyasında məskunlaşırdılar. Səhvlərin aydın göstərilməsində, həqiqətin izlənilməsində fırça və qələm Molyerin silahı idi. Molyeri oxumaq, eşitmək bütün həyatı boyu maskalanmış, gizli qalmış bir insanla görüşmək demək idi. Biz Molyerin əsərlərində elə personajlara rast gəlirik ki, onlar bizə müsbət xarakterli obraz kimi görünür, amma sonra bu personajlar yazıçı qələmi ilə ifşa edilərək, bizə onun əsl sifəti göstərilir. Komedioqraf Molyerin ilk təcrübəsinə bir pərdəli fars aiddir. Farsın mətni qaba, amma xoş zarafatlarla, mübahisələrlə, hazırcavablıqla doludur. Farsda rolların ifası sərbəst improvizasiya kimi göstərilsə də, süjet xətti saxlanılır. Molyerin öz teatrının bu cür formalaşdırmasına şübhəsiz ki, onu heyran qoyan italyan komediyaları və onun icraçıları da səbəb olmuşdur. Komediyanın icraçısının maskaları, gülməli qocalar, qısqanc qadınlar, fərasətli və ya axmaq qulluqçular, fars ənənələri və italyan komediyalrından alınmış dərslər Molyerin təcrübəsində birləşirdi. Əyalətlərə səyahətin təəssüratı ilə Molyer özünün beş pərdəli ilk iki komediyasını yazdı. («L'étourdi» et «Le Dépit amoureux» – «Yelbeyin» və «Dilxor aşiq»). Rus dramaturqu A.S.Dmitriyeviç Molyer yaradıcılığının hərtərəfliliyini qiymətləndirərək yazır: «Molyer klassik dünya ədəbiyyatının, öz əsrinin və öz ölkəsinin sərhədlərini addımlayaraq keçən milli fransız komediyasının yaradıcısıdır. Onun komediyaları, tamaşaları gülməyə çağırır, amma «gülmək xatirinə gülməyə yox», bu gülüş böyük əxlaqi və sosial probemlərin həllidir.» (2, s.235) Müəllif öz fikirində haqlıdır. Molyer teatrı böyük əhəmiyyətli, canlı bir məktəbdir. Dramaturq siyasi, fəlsəfi, əxlaqi problemləri əks etdirərək tamaşaçıları şən, zarafatcıl dillə güldürür. Onun komediyalarının «Ərlər məktəbi», «Arvadlar məktəbi» adlanması da təsadüfi deyil. Bu əsərlərdə novatorluq, köhnəliklə mübarizə, renessansın əlamətləri görünür. Molyer teatrının hərtərəfliliyi onun yeni ölçüdə yazılması ilə bağlıdır. O nə yazırdısa, öz zəmanəsi ilə əlaqələndirirdi. Onun əsərləri öz ritmi və kompozisiyası ilə oxucunu cəlb edir.Molyerin əsərləri böyük islahedici gücə malikdir. Bu əsərlər nöqsanlı, əxlaqsız insanları ələ salmaqla onlara ağır zərbə vurur. Molyerə görə komediya qarşısında iki vəzifə durur: nəsihət vermək və əyləndirmək. Əgər komediya ibrətamiz elementlərdən məhrum edilsə, o mənasız masqaraya çevriləcək, əgər ondan əyləndirici funksiyanı alsaq, komediya əxlaqi bir əsərə yerini vermiş olacaq. Dramaturq öz satirasının ictimai əhəmiyyətini çox gözəl başa düşürdü: Molyerə görə ən yaxşı onun edə bildiyidir – bu onun dövrünün nöqsanlarını gülünc təsvir edərək ifşa etməkdir. Real zarafatlarında, səhnə həqiqətlərində Molyerin cazibəsi bütünlüklə aydındır, amma zaman, zövq, əsr anlayışı ona Şekspir zirvəsinə qalxmaq üçün öz istedadını göstərməyə imkan vermirdi. Molyerin fikrincə, Teatr – cəmiyyətin güzgüsüdür, o bu fikri ilə bütün yazıçıları, insanları təsvir etməyə, orijinaldan yazmağa, onların portretini münasib, uyğun yaratmağa çağırırdı. Komediyanın vəzifələri haqqında Molyerin təqdimatı klassik estetika dairəsindən yaranmırdı. O, komediyanın vəzifəsini, «səhnədə ümumi nöqsanları xoş təsirlə» verməkdə görürdü. Molyer klassik

qaydalara qarşı çıxmırdı. Aktyor özü üçün oynamamalıdır, dramaturqu öyrənməlidir. Dramaturqun dərin inamına görə şeirləri oxumaq lazımdır. Molyerin fikrincə sadə, təbii və dramatik materialın özü də həqiqət olmalıdır. Molyerin fikri düzgün idi, amma onu müasirləri bu cür qəbul etmirdilər. Molyerin komediyalarında hər şeydən əvvəl klassik teatrın bütün xarakterik xüsusiyyətləri vardır. Korneyin «Horatsi» faciəsində biz Horatsinin və Kruatsinin dövlət quruluşu prinsipləri haqqındakı mövzuda fəlsəfi mübahisə və müzakirələrində iştirak edirik – Molyerin «Adam sevməz» və «Don Juan» komediyalarında biz Alsest və Filintin yaxud Don Juan və onun xidmətçi Sqanarelin mübahisələrini eşidirik, bu diskussiya ilə də onlar səhnə fəaliyyətində birləşirlər. Pyesin başlanğıcında adətən əxlaqi, ictimai yaxud fəlsəfi problem durur, burada isə ayrılmış, sərhəd qoyulmuş güc göstərilir. İki nöqteyi-nəzər, iki izahat, iki fikir ətrafında mübarizə əmələ gəlir, pyesin sonunda müəllifin öz fikri həlledicidir. Molyerin birinci orijinal pyesi – «Gülünc ədəbazlar» (Prècieuses ridicules) komediyası qeyri-adi uğur qazandı, müəllifin kifayət qədər parlaq istedada malik olduğunu sübuta yetirdi, amma böyük mübahisələrə səbəb oldu. Komediyanın müvəqqəti olaraq qadağan edilməsi xalqın marağını daha da oyatdı. Ehtiyatlı olan Molyer təhlükəli qadınların nifrətini özünə qarşı qaldırmaq istəmirdi və buna görə də o, hər vasitə ilə öz nazlı qadınlarını «həqiqi nazlı ədabazlardan»dan ayırırdı. Dramaturqun hər bir işarəsi aydın idi və molyersayağı replikaların hər birində xanımlar hamıya məlum olan sözlərlə həqiqi ədabazı tanıyırdılar.

Molyer “Alim qadınlar”əsərində «oxumuş» qadınları ələ salırdı. Molyerin pyesində qadına təhsil vermək olar, yoxsa yox məsələsindən söhbət getmir. Söhbət yalançı alimlik və onunla birlikdə idealist fəlsəfədən gedir. Molyerin komediyasında oxumuş qadın bu fəlsəfəni komik ifadə edəndir. Molyerin digər komediyaları ilə müqayisədə “Alim qadınlar” bir az sərt tərzdə yazılmış komediyadır. Komediya sadə intriqaları ilə yadda qalandır. Evlilik konsepsiyası və cəmiyyətdə qadının rolu barədə Henriet və Armand arasındakı konflikt “materiya” və “dünyəvilik” barədə Filamint və Krisalın arasındakı konfliktə ziddir, həqiqi intellektual keyfiyyəti bilmələri barədə Klitandrın və Trissotin arasındakı konfiliktndən fərqlənir.

«Tartüf»ün adı dünyada məşhurdur. Molyer Tartüf obrazını yaratmaqla öz səhnə qəhrəmanında riyakarlığın bütün mənfi xüsusiyyətlərini cəmləşdirdi, onları geniş planda ifadə etdi və tamaşaçının yaddaşına həmişəlik həkk etdi. Molyer tamaşaçılara ictimai xadimləri, əhatə olunduqları insanları səhvsiz tanımağı öyrətdi.

Molyer yazırdı: «İstər mən onu «Yalançı» adlandırım, dünyəvi paltarda qəhrəmanı dəyişim, istər başına balaca şlyapa, uzun saç qoyum, böyük yaxalıq və krujevalı don geyindirim, əsaslı surətdə dəyişiklik edim, heç bir xeyri yoxdur, nəzərdə tutulmuş portretin ən əhəmiyyətsiz xüsusiyyəti, cizgisi belə onu tanımaq üçün bəhanə olacaq.» (3, s.381)

Dramaturq əsaslı sürətdə riyakarlığı səhnədə ifadə etməyin bütün detallarını fikirləşmişdi. Tartüf səhnədə o dəqiqə görsənmir. Tamaşanın ilk pərdəsini seyr edən tamaşaçı yaramaza tamaşa etməyə hazırlaşır və gərgin bir halda bu anı gözləyir. Səhnədə Tartüf haqqında söhbət gedəndə tamaşaçılar arasında onun haqqında mübahisə gedirdi: biri onu lənətləyir, digəri isə tərifləyirdi.Pyes qoca Pernelin səhnədə görünməsi ilə başlayır. Bütün iştirakçılar səhnədə onunla mübahisə edir. Qoca heç kəsi eşitmək istəmir və ancaq bir şeyi təkrarlayırdı ki, Tartüf təmiz qəlbli insandır. Pyesin ən ağıllı, müdrik personajı sadə qəlbli qulluqçu Dorina Tartüfün qeyri-normal mahiyyətli moizələrini ifşa etməyə çalışır.

Molyer nəyi təsvir edirdisə sadə dildə təsvir edirdi. O, ifratçılığa qarşı çıxırdı. Bu humanist ideya xüsusi olaraq dünyada alçaq, qeyri-normal əxlaqa malik tartüfləri cəsarətlə ittiham etməyə kömək edirdi. Komediyalarını eyni formada quran Molyer əsərlərində hadisə vəhdəti yaratmağa çalışmamışdır. Onun pyesləri hadisələrin vəhdəti baxımından deyil, maraq baxımından faydalıdır. “Xəsis” komediyasında dörd intriqa verilir. Əsərdə birinci problem iki gənc qızın, Eliz və Marianın onları sevən iki gənclə, Valer və Kleant ilə evlənib evlənməyəcəkləri, yaxud

da yaşlı insanların, Anselm və Qarpaqonun onlarla evlənmək istədikləri məsələləridir. İkinci hadisə əsərin birinci pərdəsinin üçüncü səhnəsində başlayır. Hadisə sahibləri tərəfindən pis hərəkət etməyə təhrik edilən ev qulluqçularından bəhs edir. Öz sahibindən qisas almaq üçün Lafleş oğurluq edəcək. Əsərin üçüncü süjeti Qarpaqonun və onun oğlunun rəqabətindən bəhs edir. Nəhayət Lafleşin Qarpaqona qarşı hazırladığı oğurluq hadisəsi, qızılla dolu sandıqçanın oğurlanması, birinci pərdədən pyesin sonuna qədər əsərin mənbəyini və dördüncü səhnəni təşkil edir. Hadisələrin vəhdətində Molier bir xarakter üçün maraq vəhdəti yaradırdı. Bu da onu izah edirki, “Xəsis” əsəri xarakterik komediyadır.

Molyer öz estetik proqramının əsas prinsipini yaddan çıxartmırdı. O, ifşa edilmiş oyunbazın əlamətlərindən istifadə edərək tamaşaçıları güldürür. Molyerin gücü onun humanist ideallara qırılmaz bağlılığında idi. Məhz daxilindəki xəlqiliyin sayəsində Molyerin yaradıcılığı müasir dəbi prosesdə müasirləri ilə müqayisədə daha qabarıq nəzərə çarpırdı. Molyerin müasiri olan nasirlər - Sorel, Skarron, Fyuretyer insan xasiyyətinin parlaq səhnələrini əks etməklə və ayrı-ayrı hallarda sosial xarakterləri yaratmaqla ictimai ziddiyyətlərin ümumiləşdirilməsi və dərin-dən açılması baxımından Molyerlə müqayisədə uduzurdular. Dramaturgiyaya gəlincə, bu sahədə Molyerin üstünlüyü aydın və açıq idi. XVII əsrin ortalarına doğru fransız dramaturgiyası durğunluq dövrünü yaşayırdı. Yeganə böyük dramaturq olan Pyer Korney dərin yaradıcılıq böhranı keçirdirdi, səhnə başdan-başa məzmunsuz tragikomediyalarla aşıb-daşırdı. Molyerin böyüklüyü onun həyat gercəklilkərini bilməsində və xalqa məhəbbətində idi.

Molyerin rasional estetikanın normalarına riayət etməsi yalnız estetik anlam daşıyırdı və bu prinsip onun mətnində dominantlıq təşkil etmirdi. Məlum olduğu kimi Molyerin həyat və yaradıcılığı XVII əsrə təsadüf etdiyindən onun əsərlərində klassisizmin cəhətləri hiss edilir. Klassisizmin doktrinasına iki əsas prinsipə əsaslanır. Birincisi, ağılın, şüurun müstəqilliyi, təbiətin və həqiqətin təcəssümü, bu prinsipə görə ağıl, şüur hisslər üzərində qələbə çalmalıdır, ona görə ki, ağıl təbiət ilə əlaqəlidir, çünki təbiətdə həqiqət vardır. Bu nöqteyi-nəzərdən təbiəti öyrənmək, imitasiya etmək lazımdır. İkincisi isə antik dövr yazıçılarına hörmət etmək və onları imitasiya etmək lazımdır. Klassisizmin nümayəndələri əsər yazarkən zaman, yer və hadisə vəhdətinə riayət etməlidirlər. Molyer öz əsərlərində klassisizmin müəyyən müddəalarına riayət etmişdir. Vəhdət prinsipi, əlbəttə ki, müəyyən şəraitdə sənətkarı çərçivəyə salır. Lakin bu heç də o demək deyildir ki, bu labüd şəkildə onun xırdaçılığa yol verməsi ilə nəticələnməlidir. Onda bütün antik dramaturgiya, Korney, Rasin, Molyer “xırdaçı” elan olunmalıdır.

Molyerin üslubu klassisizmin Korney və Rasin kimi nümayəndələri ilə müqayisədə şəksiz üstünlüyə malik idi. Bu üstünlüklər gerçəkliklə, xalq ənənələri və Renessans sənətinin prinsipləri ilə sıx şəkildə bağlı idi. Renessans incəsənətinin ümdə xüsusiyyətlərindən olan xəlqilik Molyerin yaradıcılığında dominantlıq təşkil edirdi. Bununla belə o, hər hansı prinsipi doqmaya çevirmirdi. Bu və ya digər əsərində insana dərin inamını təsdiq etməklə, insanın xoşbəxt olmaq haqqını ifadə etməklə bilirdi ki, təbiət adlı mənbədən təkcə təmiz su deyil, həm də paslı su axır. İntibah dövrü sənətkarlarının həyatda axtardıqları təbiətlə ağıl arasındakı harmoniya artıq özünün mütərəqqi tarixi mənasını itirmişdi. Bu mərhələdə, yeni ictimai şəraitdə həyatın poetik təcəssümü yalançı ideallaşdırma ilə sonuclanırdı. Humanist ideallar uğrunda mübarizə həyata və gerçəkliyə ayıq münasibət tələb edirdi, Molyer də incəsənətin məhz bu tarixi missiyasını yerinə yetirdi. Molyer yaradıcılığının bütün canlılığı və emosionallığı ilə, intellektuallıq onun dühasının mühüm cəhəti sayılırdı. Rasional metod tipik xarakterlərin və həyati konfliktlərin dərin və şüurlu analizini şərtləndirirdi, komediyaların ideya baxımdan aydınlığına şərait yaradırdı. Klassisist istiqamətli bir sənətkar kimi Molyeri həyatdan yalnız o cəhətləri seçib-ayırırdı ki, bunlar ona ayrı-ayrı tiplərin təsvirində yardımçı olurdu, bədii mətnlərdə o, həyatı bütün rəngləri ilə canlandırmağa çalışmırdı. Məhz bu cəhəti nəzərə almaqla təsdiq edə bilərik ki, Molyerdə xəsis yalnız xəsisdir, Şekspirdə xəsis həm də fərasətli, kinli və

ağıllıdır. Molyerin komediyalarında həyati tiplər özlərinin dərin təcəssümünü xarakterin mürəkkəb çoxcəhətliliyində deyil, onların əsas və dominant cəhətlərində tapırdı. Bu səbəbdən onlar birbaşa məişət kontekstində deyil, tipik keyfiyyətlərin məntiqlə seçilməsindən sonra verilirdi və buna görə də bu əsərlərdə və tiplərdə satirik boyalar sıxılmış vəziyyətdə təqdim edilirdi. Məhz bu üstünlüyü sayəsində Molyer Tartüf, Don Juan, Qarpaqon və sair bu kimi əlahiddə tipləri komediyalarında canlandıraraq bütün dünyada fransız komediyasının atası adlandırıldı.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1.Molière. Le Tartuffe. Don Juan. Le Misanthrope. Paris :Edition de Georges Couton, 1883, 35 p.

2.Дмитриевич А.С. История зарубежной литературы. XVII-XVIII вв. М.: Просвещение, 1988, 530 с.

3.Molière. Oeuvres complètes de Molière. En V tomes, T. 2, Paris : İmprimérie de Pierre Didot, 1822, 417 p.

**С.Дадашева**

**Эстетические взгляды Мольера**
**Резюме**

Работы Мольера имеют большую умеренность. Эти работы наносят тяжелый удар тем, кто виновен и аморален. По словам Мали, перед комедией стоят две задачи: давать советы и развлекать. Если комедия лишена поучительных элементов, она станет неясной, а если ей от этого станет весело, комедию заменит этическое произведение. Драматург понимал важность своей линии: лучшее, что он мог сделать, - это раскрыть недостатки своей эпохи нелепым образом. Настоящие шутки, обаяние Мольера в реалиях сцены вполне понятны, но концепция времени, удовольствия и возраста не позволила ему проявить свой талант подняться на вершину Шекспира. По мнению Мольера, Театр - это зеркало общества, и он призвал всех писателей, людей писать, писать с оригинала, делать их портрет подходящим и уместным.Представление Мольера о задачах комедии произошло не от классической эстетики. Он увидел задачу комедии «дать положительный эффект общим недостаткам на сцене». Мольер не против классических правил. Актер не должен играть за себя, он должен изучать драматургию.

Мольер не забыл основной принцип своей эстетической программы. Он использует признаки выставленного игрока, чтобы заставить аудиторию смеяться. Власть Мольера была неотделима от его гуманистических идеалов. Благодаря его уникальным творениям творчество Мольера казалось более ярким в современной моде, чем его современники.

Стиль Мольера имел абсолютное превосходство над классиками Классе и Расена. Эти преимущества были тесно связаны с народными традициями и принципами искусства эпохи Возрождения. Одной из самых ярких черт искусства эпохи Возрождения было доминирование в творчестве Мольера. При всей жизненности и эмоциональности творчества Мольера, интеллектуальность была важным аспектом его мечты. Рациональный метод обеспечил глубокий и осознанный анализ типичных персонажей и жизненных конфликтов и дал комедиям представление о ясности. Как художник для Classisist, Мольери выбрал только те аспекты жизни, которые помогли ему в описании разных типов, в художественных текстах он не пытался оживить свою жизнь всеми ее красками.

Ключевые слова: драматург, комик, памфлет, характер

**S.Dadashova**

## Aesthetic views of Molyer

**Summary**

Molyer's works are of great moderation. These works make a heavy blow to those who are guilty and immoral. According to Mali, there are two tasks in front of comedy: to give advice and entertain. If the comedy is deprived of instructive elements, it will become obscure, and if it gets fun from it, the comedy will be replaced by an ethical piece. The dramatist understood the importance of his line: The best he could do was to expose the flaws of his era in a ridiculous way. Real jokes, Molyer's charm in the realities of the scene are quite clear, but the concept of time, pleasure and age did not allow him to show his talent to climb Shakespeare's peak. In Molyer's view, Theater is a mirror of society, and he has called on all writers, people to write, write from the original, make their portrait suitable and appropriate.Molyer's presentation about the tasks of the comedy did not originate from the classic aesthetics. He saw the task of the comedy "giving a positive effect to the overall shortcomings on the stage." Molyer did not oppose classic rules. The actor should not play for himself, he should learn dramaturgy.Molyer did not forget the basic principle of his aesthetic program. He uses the signs of the exposed player to make the audience laugh. Molyer's power was inseparable from his humanistic ideals. Thanks to his unique creations, Molyer's creativity seemed more vivid in contemporary fashion than his contemporaries.Molyer's style had absolute superiority over the classics of Klasse and Rasen. These advantages were closely linked to the traditions of the people and to the principles of the Renaissance art. One of the most prominent features of the Renaissance art was dominance in Molyer's creativity. With all the vitality and emotionality of Molyer's creativity, intellectuality was an important aspect of his dreams. The rational method provided a deep and conscious analysis of typical characters and vital conflicts, and gave comedies an idea of clarity. As an artist for Classisist, Molyeri chose only those aspects of life that helped him in the description of different types, in artistic texts, he did not try to revive his life with all its colors.

Key words: dramatist, comedian, pamphlet, character

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 26.07.2019
Filologiya elmləri doktoru, professor Ələsgər Zeynalov tərəfindən çapa tövsiyə olunmuşdur.